**UOT 008:001.8**

***Aysel Süleyman***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail***: info@admiu.edu.az

# KULTUROLOJİ DƏYƏRLƏR ANLAYIŞI: ƏNƏNƏVİ VƏ MÜASİR YANAŞMALAR

**Xülasə:** Məqalədə "mədəni dəyərlər" anlayışı elmi aspektdən araşdırılmışdır. Müxtəlif elm sahələrində "mədəni dəyərlər" anlayışına dair ənənəvi və müasir yanaşmalar nəzərdən keçirilmişdir. Xüsusilə hüquqi və kulturoloji aspektdən əldə olunmuş nəticələr qeyd olunmuşdur.

**Açar sözlər:** insan fəaliyyəti, kulturoloji dəyər, mədəni nailiyyət, kulturologiya.

Dünya mədəniyyəti bizim qarşımızda, milli-mədəni dəyərlərin müəyyən sistemlərinə uyğun, mədəni müxtəlifliyi və mədəni özünəməxsusluğu, insan maraqlarının ifadəsi və tələbatlarının ödənilməsi ilə fərqlənən xalq, millət və etnosların həyat fəaliyyətinin fövqəladə mənzərəsini təqdim edir.

Mədəni dəyərlərə münasibət məsələsi müasir dünyada baş verən kəskin siyasi, iqtisadi, milli problemlər sırasında də çox böyük aktuallıq kəsb edir. Mədəni dəyərlər haqqında uzun illər ərzində ümumxalq malına çevrilməsi üçün mühafizəsinə, qorunmasına böyük və zəruri ehtiyac duyulan kifayət qədər fikir və mülahizələr söylənilmişdir. Mədəni dəyərlərin qorunması, mühafizəsi məsələsi ətrafında bir-birinə zidd duran mövqelərə rast gəlinir. Lakin, mühafizənin əsas obyekti sayılan mədəni dəyərlər anlayışı haqqında kifayət qədər elmi cəhətdən dəqiqləşdirmə və aydınlaşdırmalar da mövcud deyildir (5, s. 25).

Birinci məsələ "mədəni dəyər" anlayışının özününü mürəkkəbliyini və rəngarəngliyi aydınlaşdırmaqdır. Çünki bu anlayış həm fəlsəfi-sosioloji, həm hüquqi, həm kulturoloji, həm də digər elmi konteks1ərdən tədqiq edilməsi zəruridir. Şübhəsiz, mədəni dəyərlərin əlamətlərinin qeyd olunan yanaşma və kontekslərdən bir-birini tamamlaması mümkün deyildir.

Buna baxmayaraq nəzərə almaq lazımdır ki, sadalananlar arasında prinsipial fərq də yoxdur. Qeyd etmək lazımdır ki, bir çox qanunvericiliklərdə mədəni dəyərlərin tərifi "cəmiyyət üçün tarixi, bədii və digər əhəmiyyətli dəyərə malik əmlak" kimi dərk olunurdu. "Mədəni dəyərlər" anlayışına bir çox səciyyələrdə də kifayət qədər aydınlıq gətirilmir. Daha çox mədəni dəyərlərə aid

edilən obyektlər haqqında sadalanmalar aparılsa da, onların açılışı diqqətdən kənarda qalır.

Fikrimizcə, mədəni dəyərlər insanın həyat fəaliyyətini tənzimləyən və dövlət siyasətinin ideoloji əsasını təşkil edən sabit mədəni istiqamətlərdir. Beləki, ruhi həyatın müxtəlif fakt, hadisə və proseslərinə münasibət ifadə edən ruhi dəyərlər, həm insannın fərdi həyat yolu, həm də insan qruplarının fəaliyyət istiqamətini müəyyənləşdirir (1, s. 15).

Xüsusi vurğulamaq lazımdır ki, "mədəni dəyərlər" anlayışına bir çox beynəlxalq konvensiyalarda rast gəlinir. Belə ki, hərbi konfliktlər zamanı mədəni dəyərlərin müdafiəsi haqqında məşhur 1954-cü il Haaqa konvensiyasının I müddəasına uyğun olaraq mədəni dəyərlər üç kateqoriya üzrə müəyyən olunur (22, s. 80):

- Memarlıq, incəsənət və tarixi, dini və kübar, arxeoloji yerlər, memarlıq ansamblları kimi hər bir xalqın mədəni irsində əhəmiyyəti olan tarixi, yaxud bədii maraq kəsb edən daşınan və daşınmaz dəyərlər; incəsənət əsərləri, əlyazmaları, kitablar, bədii, tarixi, yaxud arxeoloji əhəmiyyət kəsb edən, eləcə də yuxarıda göstərilən dəyərlərin arxiv materialları və reproduksiyaları;
- Daşınmaz mədəni dəyərlər, muzey, iri kitabxana və arxiv saxlanc və ekspozisiya kimi fəaliyyət göstərən binalar;
- Mədəni dəyərlərin əhəmiyyəli sayda sayını əhatə edən "mədəni dəyərlərin toplanmsı mərkəzləri" kimi adlandırılan obyektlər.

Bu bəndləri təhlil etdikdə aydın olur ki, mədəni dəyərlər haqqında qeyd olunan bu tərif digər beynəlxalq qanunvericilik aktlarında, eləcə də ölkə əhəmiyyətli sənədlərdə təsbit olunan müddəalarda eyni məna və mahiyyəti əhatə edir. Yuxarıda söylənilən tərifin bəzi məqamları haqqında bu fikirləri qeyd etmək olar:

- həcmi etibarilə mədəni dəyərlər daha geniş şəkildə şərh olunur;
- mədəni dəyərlərin şərhi daha çox təsviri olan obyektlərin sadalanmasına üstünlük verilir, dəyərlərin mahiyyəti isə kölgədə qalır.

İstər beynəlxalq, istərsə də ölkə əhəmiyyətli sənədlərdə "mədəni dəyərlər" anlayışı ilə yanaşı "mədəni və tarixi dəyərlər", "tarixi və mədəni dəyərlər, obyektlər", "mədəni nailiyyətlər" və s. bu kimi terminlərdən istifadə olunur. Hətta normativ aktlarda daha çox və ya az dəqiq tərifin verilməsi də bunların bir-birilə, eləcə də "mədəni dəyərlər" anlayışı ilə nisbət məsələsini zəiflətmir. Nəzərdən keçirilən bu anlayışların dəqiq əlamətlərinin indiyədək müəyyən edilməməsi bir çox normativ aktlar üçün xarakterik cəhətdir. Bu isə nəticədə mədəni dəyərlər və onlara oxşar obyektlərin qorunması və istifadə məsələlərinin həllini xeyli dərəcədə mürəkkəbləşdirir (9, s. 100).

Beləliklə, həmin qanunvericilik sənədlərinə istinadən belə bir qənaət əldə etmək olur ki, fəaliyyətdə olan hazırki qanunvericilik "mədəni dəyərlər" anlayışının təcrübədə dəqiq və elmi cəhətdən əsaslandırılmış, rahat şəkildə tətbiqinə malik deyildi. Məsələdən belə mənaya gəlmək olar ki. ən vacib cəhət

"mədəni dəyərlər" məsələsinin hüquqi elmi tərəfindən kənarda qalması faktıdır. Daha çox bu anlayışdan ədəbiyyatlarda hər kəsə malum, aydın olan termin kimi istifadə olunaraq heç bir izaha, şərhə yol verilmir. "Mədəni dəyərlər" anlayışının məzmun və mahiyyətinin açıqlamaq istəyənlərin cəhdi isə mədəni dəyərə malik olan obyektlərin təsvirinin veriməsi çərçivəsindən kənara çıxmır. Xüsusi olaraq mədəni dəyərlərin tədqiqinə həsr olunmuş bəzi hüquqi tədqiqatlara nəzər salaq. Belə ki, mədəni dəyərlərə cəmiyyət inkişaf səviyyəsinin özündə əsk etdirən bu va ya başqa maddi formada təzahür tapan obytektlər kimi deyil, insan fəaliyyətinin məhsulu olub və naticə etibarilə xüsusi əhəmiyyət səbəblərinin özündə əks etdirən obyektlər kimi baxılır (8, s. 78).

Mədəni dəyərlərin göstərilən əlamətləri, hazırki anlayışa müvafiq müəyyənlik gətirmiş olsa da, lakin bununla onun xarakteristikası bitir. Bu məqəmda əsas aydın olmayan məsələlər sırasına aşağıdakılar aiddir:

- bu və ya digər obyektin mədəni dəyərinin nə ilə və necə ölçülməsi;
- mədəni dəyərlərin mahiyyətinin hansı əlamətləri əhatə etməsi;
- bunlardan hansının köməkçi xarakterə malik olması;
- mədəni dəyərlərin hüquqi mühafizənin digər oxşar obyektlərə nisbəti və s.

Təkcə nəzəri deyil, həm də təcrübi əhəmiyyət kəsb edən bu kimi suallara yalnız müvafiq sosial-kulturoloji və hüquqi materialların elmio təhlili əsasında cavab tapmaq mümkündür.

Hər şeydən əvvəl mədəniyyətə aid olan dəyişikliklər, dəyərlər səviyyəsində ideal, etika, təhsil sistemləri, sosial, istehsal və məıişət normativləri, hüquq, incəsənət, eləcə də ruhi mədəniyyətin əşyavi təcəssümündə baş verir. hər bir adam eyni mədəni dəyərləri müxtəlif cür qiymətləndirir. İnsanın mədəni potensialının inkişafında intellektual və humanist dəyərlərin mühüm əhəmiyyəti var. İctimai nailiyyətlərin qiymətləndirilmə meyarı, ölkənin intellektual potensialı və insana humanist münasibətlə ölçülən, həyat səviyyəsidir. İbn Sinaya görə, cəmiyyətin rifahı – elmi biliklərə əsaslanan düzgün, səxavət və ləyaqətli siyasətlə əldə edilir.

Qeyd etmək mütləq vacibdir ki, fəlsəfədə "mədəniyyət" haqqında rəngarəng şərhlərə rast gəlinən digər bir anlayış yoxdur. Bu anlayışın yüzlərlə tərif və anlayışı mövcud olsa da, hamı tərəfindən yetkjil şəkildə qəbul edilən vahid bir tərif hələ də yoxdur. İstər bu məfhum avropa dillərində səslənən "kultura", istərsə də dilimizdəki "mədəniyyət" qəbul və dərk edilmiş geniş mənalarından ən populyarı təhsil, tərbiyə, insanın maariflənməsilə bağlıdır. Bütün anlamlarda "mədəniyyət", yaxud "kultura" məvhumları insan fəaliyyətinin məhsulu kimi dərk olunur (7, s. 65).

İlk növbədə insan fəaliyyətinin məhsulu kimi mədəniyyətin özünü nədə təzahür etdiyini müəyyənləşdirmək üçün mədəniyyət əşyaları ilə təbiət əşyaları arasındakı fərqi müəyyənləşdirmək vacibdir. Mədəniyyət dünyanın natural şəkildə mövcud olan şeylərindən fərqlənən qeyri-təbiət obyektidir. Hətta təbiəti maddi, yaxud mənəvi cəhətdən yenidən dəyişdirilmiş görkəmdə özünə cəlb edən mədəniyyəti təbiətlə eyniləşdirmnək, ona bənzətmək olmaz.

Qeyri-təbiətlilik, antinaturalist, hətta, mədəniyyəti müəyyən edən əlamətlərdəndir. Başqa sözlə deyilsə, mədəniyyət əşyanı, insanın bütövlüklə asılı olduğu yerdən xarakterizə edir, yəni onun insan tərəfindən təşəkkül tapdığını, yəni təşəkkül mənbəyini bildirir. Bu mənada mədəniyyət digərlərilə birlikdə mövcud olan ayrıca götürülmüş bir əşya yox, nəticə etibarilə bütün əşyalara xas mənşəcə insani, lakin qeyri-təbii kimi ümumi xüsusiyyətlər kimi dərk olunur.

Əşya insan işləmələri, düzəltmələri nəticəsində ictimai münasibətlərin daşıyıcısı xüsusiyyətini əldə edir, insan özünü təzahür etdirməsi işinə xidmət edir, cəmiyyətin inkişaf prosesində insanlar arasında əlaqə formasəna çevrilir. Bu nöqteyi-nəzərə görə mədəniyyət bilik, qabiliyyət və münasibətlərin əşyavi təcəssümünü ifadə edən maddi və mənəvi zənginlikdir.

Onu da nəzərdən qaçırmaq olmaz ki, mədəniyyətin bu cür dərki həmin hadisənin bir tərəfini açıqlayır. Dünyanın əşyavi zənginliyini yaratmaqla insanın özü də eyni vaxtda özü-özünü yaradır, qüvvə və qabiliyyətlərini təkmilləşdirir, onların təmini üçün yeni tələb və vasitələri formalaşdırır.

Beləliklə, tarixdə hər bir yeni nəsil öz inkişafına sıfırdan, yəni boş yerdən deyil, əksinə, özündən əvvəl varislərin qoyub getdiyi irsi mənimsəyərək başlayır. İnsanlar öz tarixlərini istədikləri kimi yox, keçmişdən onlara gəlib çatmışlara uyğun qurub-yaradırlar. Bundan çıxış edərək müxtəlif nəsillər, xalqlar arasında tarixi əlaqə, varislik yaranmış olur (40, s. 22).

Mədəni inkişaf prosesində öncəki fəaliyyətin nəticələrindən birincilər köhnəlmiş kimi, ikincilər isə keçici əhəmiyyət kəsb edir. Digərləri müasir təcrübə əsasənda əhəmiyyətinə görə bütövlükdə qəbul edilir və ya yenidən yaradılaraq yeni məna kəsb edərək tətbiq o lunur. Varislikdə mədəniyyətin inkişafın dialektik xarakteri ifadə olunur. Mədəni dəyərlər özündə ümumiliyi əhatə etməkdən başqa bunları mədəniyyətin digər predmetlərindən ayırıb seçən ictimai mahiyyətin özünün zamanla səslənməsi faktıdır. Özlərində ümumi tarixi əhəmiyyəti daşıyan bu dəyərlər, çox vaxt digər nəsilllərin fəaliyyəti ilə üzə çıxır.

## Ədəbiyyat:

1. Ağayar Şükürov. Kulturologiya (Dərslik). Bakı: "Adiloğlu", 2003, 250 s.
2. Fuad Məmmədov. Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. Bakı: "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, 2006. 286 s.
3. Huseynov İ., Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı: ADMİU, 1996. 180 s.
4. Mədəniyyət tarixi və nəzəriyyəsi (dərslik). Bakı: ADMİU, 2006, 820 s.
5. Şukurov A. Kulturologiya (Dərslik). Bakı: Aqiloğlu, 2003, 274 s.
6. Гуревич П.С. Культурология (учебник, 3-е изд., перераб. к допол.) Москва: УИЦ “Гардарики”, 1999, 288 с.
7. Культурология (учеб. Пособие для вузов. Под. ред. Проф. А.Н. Марковой, 3-е изд). Москва: ЮНИТИ-ДАНА, 2002 384 с.

**Айсель Сулейман**

**Теория культурных ценностей:
традиционные и современные подходы**

**Резюме**

В статье проводиться анализ теории "культурных ценностей". Рассматриваются традиционные и современные научные подходы к теории «культурных ценностей».

**Ключевые слова:** человеческая деятельность, культурная ценность, культурные достижения, культурология.

**Aysel Suleyman**

**The concept of cultural values: traditional and modern approaches**

**Summary**

In the article, the concept of "cultural values" has been studied from a scientific aspect. Traditional and modern approaches to the concept of "cultural values" have been studied in different fields of science. Particularly, the findings from the legal and cultural aspects have been noted.

**Keywords:** human activity, cultural value, cultural achievement, culturology.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.04.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 10.05.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Sultanlı**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**